# “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş intellektual yarış

**Ağstafa rayonunun ümumtəhsil məktəblərində gənclərin çağırışaqədərki hərbi hazırlığı və fiziki tərbiyə müəllimlərinin iştirakı ilə "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar "Azərbaycanın suverenliyi və ərazi bütövlüyü" adlı intellektual yarış keçirilib.**

Ağstafa Rayon İcra Hakimiyyəti, Qazax-Tovuz Regional Təhsil İdarəsinin rayon üzrə təhsil sektoru və "Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun birgə təşkilatçılığı ilə Vurğun qəsəbə tam orta məktəbin binasında keçirilən intellektual yarışın əsas məqsədi təhsil ocaqlarında hərbi-vətənpərvərlik və milli-mənəvi dəyərlərin, eyni zamanda qoruq ərazisində yerləşən abidələrin təbliği tədbirlərinə dəstək olmaqdır.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ulu öndər Heydər Əliyevin və Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Üç mərhələdən ibarət və 31 komandanın iştirak etdiyi yarışda ölkəmizin ərazi bütövlüyü, suverenliyi, Azərbaycan Respublikasının Konstitusiyası, o cümlədən bölgənin tarixi irsinə dair suallar təqdim olunub. Suallar çətinlik dərəcəsinə görə qruplaşdırılıb.

Gərgin və maraqlı mübarizə şəraitində keçən yarışın münsiflərinin rəyinə əsasən Ağstafa şəhər 1 nömrəli tam orta məktəbin "Zəfər" komandası 1-ci, Dağkəsəmən kənd 1 nömrəli tam orta məktəbin "Avey" komandası 2-ci, Muğanlı kəndi tam orta məktəbin "Tağlar" komandası isə 3-cü yerə layiq görülüb. Qaliblər Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən müvafiq sertifikat və hədiyyələrlə təltif olunublar.

Qoruq ərazisində aşkarlanmış maddimədəniyyət nümunələrindən və qoruğa aid çap məhsullarından ibarət sərgi də böyük maraqla qarşılanıb.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

Respublika .- 2025.- 15 yanvar (№ 08).- S.11.